# Milli Musiqi Günü münasibətilə Üzeyir Hacıbəylinin məzarı ziyarət olunub



Bu gün adını Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə qızıl hərflərlə yazdırmış dahi bəstəkar, musiqişünas, pedaqoq, publisist, ictimai xadim Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümüdür. Bu gün həm də böyük bəstəkarın şərəfinə ölkəmizdə Milli Musiqi Günüdür.

Mədəniyyət tariximizin bu əlamətdar gününün tədbirlər silsiləsi ənənəvi olaraq I Fəxri xiyabanda Üzeyir bəyin məzarının ziyarət olunması ilə başlanıb.

AZƏRTAC xəbər verir ki, mərasimdə mədəniyyət naziri Adil Kərimli, nazirliyin məsul əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli mərasimə toplaşanları Milli Musiqi Günü münasibətilə təbrik edərək bildirib ki, 18 sentyabr mədəniyyətimizin ən əlamətdar günlərindən biridir, dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günüdür: "Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəylinin xatirəsini hər birimiz dərin hörmət və ehtiramla yad edirik. 2025-ci il fevralın 3-də Prezident İlham Əliyev Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə Sərəncam imzalayıb. Ölkəmizdə bu əlamətdar tarix yüksək səviyyədə, təntənəli şəkildə keçirilir. Tədbirlər planı hazırlanıb. 140 illik yubiley çərçivəsində Azərbaycanın musiqi incilərinin ən gözəl nümunələri təkcə ölkəmizdə deyil, bütün dünyada geniş şəkildə səsləndirilir. Hətta İtaliya, Avstriya, Almaniya və Türkiyə kimi ölkələrdə də konsertlər təşkil olunur".

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə çıxışında Üzeyir Hacıbəylinin Azərbaycan musiqisini heyrətamiz sürətlə inkişaf etdirdiyini vurğulayıb: "Onun musiqisi təkcə milli mədəniyyətimizin deyil, həm də dünya musiqi xəzinəsinin incilərindəndir. Üzeyir bəyin gətirdiyi yeniliklər bu gün də Azərbaycan musiqiçilərinə, bəstəkarlarına və gənc istedadlara ilham verir".

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar dahi bəstəkarın ölməz irsindən söz açaraq deyib: "Nə qədər ki, Azərbaycan xalqı var, dahi Üzeyir bəyin irsi də hər zaman yaşayacaq".

Milli Məclisin sədr müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru Rafael Hüseynov Üzeyir Hacıbəyli barədə danışaraq bildirib ki, onun əsərləri milli ruhu, vətən sevgisini və humanist dəyərləri əks etdirərək bu gün də həm Azərbaycanda, həm dünyada böyük maraq və rəğbətlə qarşılanır.

Çıxışlardan sonra mərasim iştirakçıları Azərbaycan musiqisinin korifeylərindən Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Rəşid Behbudov, Niyazi və Müslüm Maqomayevin də məzarlarını ziyarət ediblər.